# Siyasət Sənədini Necə Yazmalı?

*Kənan Aslanlı*

*27-28 iyun 2018*

*Bakı, Azərbaycan*

## Struktur

- *Dövlət siyasəti nədir?*
- *Siyasət sənədinin strukturu*
- *Problemin identifikasiyası və təsviri*
- *Məlumatların toplanması və analizi*
- *Alternativ siyasətlərin qiymətləndirilməsi*
- *Nəticə və tövsiyyələrin hazırlanması*
- *Akademik məqalədən siyasət sənədinə doğru*

## 1-ci Sessiya – Dövlət siyasəti və siyasət sənədi nədir, onun strukturu necə olmalıdır?

## (müzakirə/qrup işi)

# Dövlət siyasəti nədir və onun formalaşması (*policy-making*) modelləri hansılardır?

- Dövlət siyasəti real ehtiyacların ödənilməsi və problemlərin həlli üçün məqsədyönlü, əsaslandırılmış qərarlara söykənən, hökumətlər tərəfindən icra edilən fəaliyyətlər toplusudur.

- **Dövlət siyasətinin formalaşması (*policy-making*) modelləri:**
- Rasional qərar vermə modeli
- «Siyasi/bürokratik oyun» modeli
- Diskurs (ideya mübadiləsi) modeli
- «Zibil qutusu» («garbage can») modeli
- İnstitusional proses modeli

# Kingdon «axınlar» (*streams*) modeli




**Örnək: Azərbaycanda Kənd Təsərrüfatı/Qida Təhlükəsizliyi**

# Dövlət siyasəti «tsikli»



## Siyasət sənədi nədir?

- Konkret dövlət siyasəti probleminin həllinə yönəlik olaraq qərar qəbul edənlər və siyasəti formalaşdıran mütəxəssislər üçün qərar vermə vasitəsi olan və onları hərəkətə gətirən hərtərəfli və inandırıcı bir arqument təmin edən araşdırma sənədidir.

- Siyasət sənədi multidisiplinar, problemin həllinə fokuslanmış və normativ xarakterli olmaqla siyasətin anlaşılmasına, məlumatlığın artırılmasına və hökumət üçün siyasətlərin dizaynına və tövsiyyə edilməsinə xidmət edir.

- Nümunə: ARDNŞ (SOFAZ) investisiya portfeli ilə bağlı siyasət sənədləri

# ARDNF investisiya portfelinin strateji bölgüsü (2016)

**Bu strukturun formalaşmasında yerli analitik mərkəzlərin «siyasət sənədləri»nin rolu olmuşdur.**




Qrafik 2.4.
İnvestisiya portfelinin strateji bölgüsü (31.12.2016)

**Siyasət sənədinin funksiyaları**

- Qərar qəbul etmə alətidir
- Strategiyalara və proqramlara analitik dəstəkdir
- Sosial-iqtisadi problemlərin alternativ həll variantlarını təqdim edir
- Akademik tədqiqatların tətbiqi yönlərini sadə formatda önə çıxarır
- İctimai müzakirələri təşviq edir




«Public Brainpower» - analitikaya əsaslanan açıq ictimai debatlar yeni institutların yaradılmasını sürətləndirir, mövcud institutlar üzərində nəzarəti gücləndirir və cəmiyyətin aktual tələblərini gündəmə gətirir.

# Azərbaycanda siyasət sənədləri hazırlayan düşüncə mərkəzləri

İqtisadi Təşəbbüslərə Yardım
Support For Economic İnitatives

CESD
Center For Economic and Social Development

Azad İqtisadiyyata Yardım İctimai Birliyi

SAM
STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİ

EDF
SBIIYF

SER
STUDYING OF ECONOMIC RESOURCES

PFMC

İqtisadi Tədqiqatlar Mərkəzi

# Siyasət sənədinin (5.000 – 20.000 söz) strukturu

- Başlıq (*Title*)
- İçindəkilər/Mündəricat (*Table of Contents*)
- Abstrakt/Xülasə (*Abstract/Executive Summary* )
- Giriş (*Introduction*)
- Problemin təsviri (*Problem Description*)
- Alternativ siyasət variantları (*Policy Options*)
- Nəticə və tövsiyyələr (*Conclusion and Recommendations*)
- Əlavələr (*Appendices*)
- Biblioqrafiya (*Bibliography*)
- Qeydlər (*Endnotes*)

## Başlıq

- Effektiv siyasət sənədinin adı
- *təsviri,*
- *aydın,*
- *qısa*
- *və maraqlı* olmalıdır.

- *Siyasət sənədinizin yuxarıdakı meyarlara uyğun başlığını 5 dəqiqə ərzində müəyyən edin.*

## Mündəricat

- Mündəricat bütün sənəd üçün oxuculara açıq bələdçi kimi çıxış edir.
- Bölümlərin başlıqları ilə yarımbaşlıqlar bir-birindən aydın ayrılmalıdır və eyni zamanda da aralarında məntiqi əlaqə olmalıdır.

## Abstrakt/Xülasə (Abstract/Executive summary)

- Siyasət sənədinin məqsədi
- Siyasət probleminin tərifi və qısa təsviri
- Siyasət alternativlərinin qiymətləndirilməsi (qısa icmal)
- Nəticə və təkliflər (qısa icmal)

*Abstrakt sənədin qısa icmalıdır, xülasə isə bütün sənədin daha ətraflı bir təsvirini (sinopsis) verir.*

## Giriş

- *Siyasət probleminin konteksti*
- *Siyasət probleminin tərifi*
- *Niyyət və ya məqsəd bəyanı (statement of intent/purpose)*
- *Metodologiya və tədqiqatın məhdudiyyətləri*
- *Siyasət sənədinin yol xəritəsi*

## Çalışma 1. Siyasət sənədinizin strukturunu hazırlayın

- Siyasət sənədinizin ilkin strukturunu növbəti 30 dəqiqədə hazırlamağa çalışın.
- Sonda hər bir iştirakçı 5 dəqiqə ərzində strukturu təqdim edəcək.

## 2-ci sessiya: Problemin müəyyən edilməsi və təsviri
## (müzakirə/qrup işi)

## Problemin təsviri (keçmiş və cari durum)

- Problemin tarixçəsi: *problemin səbəbləri, onun həll edilməmiş qalmasının səbəb olduğu itkilər və təsir etdiyi qruplar, hüquqi-siyasi-iqtisadi-sosial aspektləri, problemin həllinə yönəlik keçmiş siyasətlər və onların nəticələri*;

- Problemlə bağlı mövcud dövlət siyasəti mühiti: *hazırki dövlət siyasətini əks etdirən tənzimləyici normativ aktlar, mövcud institutlar, təcrübənin uğuru və ya uğursuzluğu, problemin indiki miqyası və təsirləri.*

# Problemin təsvirində effektiv arqumentləşdirmə

- Arqumentin elementləri arasında tutarlılıq (*coherence*) və əks arqumentlərə yönəlik ön hazırlıq;

- Təsirli arqumentlərin qurulması üçün «***Toulmin yanaşması***» - iddia (*claim*) - dəstək (*support*) - əsaslandırma (*warrant*);

- Paraqraflaşdırma – hər bir paraqraf arqumentin bir məntiqi vahidini (*logical unit*) təşkil etməlidir.

- Birinci və ikinci dərəcəli mənbələrdən istifadəyə (*incorporation*) əsaslanan arqumentlər problemin təsvirinin əsasıdır.

# Planlaşdırma siyahısı (*Planning Checklist*) - 1

- Siyasət sənədinin məqsədi nədir və hədəf kütləsi (*əsas və ikinci dərəcəli*) kimlərdir?
- Siz siyasət sənədinizlə dövlət siyasəti «tsikli»nin hansı mərhələsinə uzun müddətli təsir etmək niyyətindəsiniz?
- Dövlət siyasətinin formalaşma mərhələlərinin hər birinə hansı maraq tərəfləri və ya «steykholderlər» cəlb olunub?
- Siyasət sənədi üçün aydın bir şəkildə anlaşılan problem müəyyən etmisinizmi? Problemi 1-2 cümlə ilə ifadə edə bilərsinizmi?

## Planlaşdırma siyahısı (*Planning Checklist*) - 2

- Bir problemin olduğuna dair iddianızı dəstəkləmək üçün kifayət qədər əhatəli sübutlar və faktlar varmı?
- Bu problemi həll edə biləcək mümkün siyasət variantlarını təsvir edə və qiymətləndirə biləcəksinizmi?
- Hansı qiymətləndirmə meyarlarından istifadə etməklə alternativləri seçmək və tərcih qərarı vermək olar?
- Seçdiyiniz alternativ siyasətin digərləri üzərində effektiv şəkildə üstünlüyü ilə bağlı kifayət qədər sübutlarınız varmı?

**Çalışma 2.**

(a) “*Toulmin yanaşması*”yla siyasət sənədinizin probleminin mövcudluğu və aktuallığı ilə bağlı bir arqument (*iddia-dəstək-əsaslandırma*) formalaşdırın.

(b) Siyasət sənədinin problemini və məqsədini sadə bir insana 3-5 cümlə ilə necə izah edərdiniz?

# 3-cü Sessiya – Məlumatların toplanması və analizi
# (müzakirə/qrup işi)

**Məlumatların toplanması və təhlili metodları**

- Kəmiyyət metodları – anket nəticələrinin təhlili, tək dəyişənli və çox dəyişənli statistik təhlillər, «zaman serisi analizi», trend analizi, korrelyasiya analizi, reqresiya analizi, faktor analizi və s.

- Keyfiyyət metodları – dərinləşdirilmiş intervyular, kontent analizi, Delfi texnikası, fokus qruplarla görüş, proyeksiya, müşahidələr, təcrübələr və s.

- Birinci və ikinci dərəcəli məlumat mənbələrindən istifadə.

# Panel data = Time-series data + Cross-sectional data

| Date | Brent-price | World-oil-production | World-oil-consumption | Imbalance | Opec-total-production-capacity | World-GDP-growth | Open Interest | Inventories | Short-positions | Long-positions | Dollar Spot Index |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 31.7.2007 | 77.05 | 85.32 | 85.53 | 1.51 | 32.09 | 0.36 | 1.521 | 1.72 | 49163 | 209181 | 999.26 |
| 31.8.2007 | 72.69 | 84.53 | 85.88 | 0.35 | 31.99 | 0.36 | 1.466 | 1.70 | 75729 | 142664 | 998.76 |
| 28.9.2007 | 79.17 | 85.43 | 85.51 | 1.62 | 32.39 | 0.36 | 1.421 | 1.70 | 72284 | 198824 | 969.1 |
| 31.10.2007 | 90.63 | 86.18 | 86.88 | 0.99 | 32.45 | 0.36 | 1.469 | 1.69 | 57670 | 198614 | 954.41 |
| 30.11.2007 | 88.26 | 85.92 | 87.21 | 0.38 | 32.08 | 0.36 | 1.405 | 1.67 | 75856 | 198765 | 952.99 |
| 31.12.2007 | 93.85 | 86.40 | 86.92 | 1.13 | 32.72 | 0.36 | 1.361 | 1.65 | 82678 | 194795 | 958.15 |
| 31.1.2008 | 92.21 | 86.44 | 86.87 | 1.23 | 32.51 | 0.15 | 1.395 | 1.66 | 101487 | 186008 | 942.06 |
| 29.2.2008 | 100.1 | 86.55 | 87.08 | 1.11 | 32.64 | 0.15 | 1.445 | 1.65 | 93507 | 243995 | 924.69 |
| 31.3.2008 | 100.3 | 86.75 | 85.05 | 3.34 | 32.85 | 0.15 | 1.397 | 1.64 | 85657 | 198229 | 910.26 |
| 30.4.2008 | 111.36 | 86.28 | 86.23 | 1.70 | 32.63 | 0.15 | 1.367 | 1.65 | 90079 | 221842 | 917.3 |
| 30.5.2008 | 127.78 | 87.02 | 84.79 | 3.89 | 32.67 | 0.15 | 1.369 | 1.66 | 94432 | 198099 | 918.7 |
| 30.6.2008 | 139.83 | 86.97 | 84.48 | 4.16 | 32.68 | 0.15 | 1.286 | 1.67 | 90479 | 184917 | 917.73 |
| 31.7.2008 | 123.98 | 87.96 | 85.49 | 4.15 | 32.78 | 0.15 | 1.267 | 1.68 | 76694 | 155726 | 923.38 |
| 29.8.2008 | 114.05 | 87.00 | 84.33 | 4.36 | 32.67 | 0.15 | 1.183 | 1.69 | 79560 | 145341 | 969.8 |
| 30.9.2008 | 98.17 | 85.40 | 84.13 | 2.96 | 32.55 | 0.15 | 1.092 | 1.69 | 72508 | 117516 | 997.08 |
| 31.10.2008 | 65.32 | 87.05 | 86.09 | 2.65 | 32.64 | 0.15 | 1.108 | 1.69 | 63084 | 109270 | 1079.19 |
| 28.11.2008 | 53.49 | 86.77 | 84.7 | 3.79 | 32.46 | 0.15 | 1.141 | 1.71 | 56768 | 107203 | 1096.34 |

# MƏLUMAT MƏNBƏLƏRİ İLƏ BAĞLI ƏSAS TƏSNİFAT

- Məlumatın mənbəyinə qarşı fiziki yaxınlığa görə məlumat mənbələri iki əsas qrupda formalaşır:

- *Birinci dərəcəli məlumat mənbələrində tədqiqatçının hadisədə birbaşa iştirakı və ya hadisələri (prosesləri) birbaşa müşahidə etməsi nəticəsində əldə edilən yazılı və şifahi məlumatları əhatə edən mənbələrdir. Başqa sözlə məlumat orijinal mənbəyindən və birbaşa tədqiqatçının özü tərəfindən əldə edilən məlumatlardır.*

- *İkinci dərəcəli məlumat mənbələri, hər hansı bir məqsədlə başqa şəxslər və ya təşkilatlar tərəfindən əldə edilən məlumatların formalaşdırdığı mənbələrdir.*

# BİRİNCİ DƏRƏCƏLİ MƏLUMAT MƏNBƏLƏRİ

1. Anketlər
2. Müşahidələr
3. Eksperimentlər

   - *Laborotoriya eksperimentləri*
   - *Sahə eksperimentləri*

4. Orijinal məlumat bazaları

## İKİNCİ DƏRƏCƏLİ MƏLUMAT MƏNBƏLƏRİ

- **Kitablar:** Ən əhəmiyyətli ikinci dərəcəli məlumat mənbəyidir. Kitablardakı məlumat bir çox mövzu başlığının strukturlaşdırılmasıyla oxuyucuya daha əlçatan olur və onun işini asanlaşdırır.
- **Elmi jurnallar:** Hər bir elmi sahə üzrə etibarlı elmi jurnallar o sahə üzrə hər tarixə uyğun və aktual mövzularla zəngin məqalələr təqdim edir
- **Qəzetlər və periodik yayınlar**
- **Konfrans, simpozyum və seminarlar**
- **Audio və video mənbələr**

# İKİNCİ DƏRƏCƏLİ MƏLUMAT MƏNBƏLƏRİ

Aşağıdakı üstünlüklərə malikdir:

- *Zaman və maliyyə xərclərində azalma*
- *Yüksək keyfiyyətdə məlumat (məsələn, World Bank Metadata)*
- *Trendlərin müşahidə edilməsi üçün verilənlər bazasının təhlil etmə imkanı*
- *Verilənlər bazasının təhlil edilməsi üçün daha çox vaxtın əldə edilməsi*

Aşağıdakı məhdudiyyət və çatışmayan cəhətləri mövcuddur:

*a) Verilənlər bazası barədə məlumatlı olmamaq*

*b) Məlumatların qarışıqlığı*

*c) Məlumatların dəqiqliyini yoxlamaq imkanının olmaması*

Bu çatışmamazlıqları aradan qaldırmaq üçün aşağıdakı suallara aydınlıq gətirmək lazımdır: 1. Tədqiqatın məqsədi nədir? 2. Məlumatları kim toplamışdır? 3. Məlumatlar necə əldə edilmişdir? 4. Əldə edilən məlumatlar başqa mənbələrdəki məlumatlarla sinxornluq təşkil edirmi?

## Çalışma 3.

**Siyasət sənədinizin birinci və ikinci dərəcəli məlumat mənbələrini və tədqiqat metodlarını müəyyən edin (30 dəqiqə).**

# 2-ci gün

# 4-cü Sessiya: Alternativ siyasətlərin qiymətləndirilməsi (müzakirə/qrup işi)

## Siyasət variantları (policy options) – problemin mümkün həlli yolları

- Mümkün siyasət alternativlərini təsvir edir, qiymətləndirir və müqayisə edir;
- Üstünlük verilən siyasət həlli variantı ilə bağlı inandırıcı arqument irəli sürür;
- Həm problemin təsviri, həm də nəticə və tövsiyyələrlə məntiqi əlaqəni təmin edir.

## Siyasət variantları (policy options)

- *Təhlilin çərçivəsi* (*framework of analysis*): qiymətləndirmədə istifadə olunan indikatorların, meyarların, dəyərlərin, nəzəri və normativ mövqelərin və tətbiqi çətinliklərin təsviri və əsaslandırılması;

- *Siyasət alternativlərinin qiymətləndirilməsi*: müəyyən edilmiş indikatorlar və meyarlar ilə qiymətləndirmənin aparılması və daha optimal və təsirli həll variantının müəyyən edilməsi.

## Siyasət alternativlərini qiymətləndirmə meyarları (1)

- «*Kaldor-Hicks prinsipi*» – toplam faydanın toplam xərcdən daha çox olması siyasət alternativinin seçilməsi üçün əsas kriteriyadır (*net rifahın artırılması*).

- «*Pareto optimum kriteriyası*» - hər hansı bir fərdin rifahının digər heç bir fərdin rifahını azaltmadan artırmaq (*minimum rifahın qorunması*).

## Siyasət alternativlərini qiymətləndirmə meyarları (2)

- Texniki rasionallıq
- İqtisadi rasionallıq
- Hüquqi rasionallıq
- Sosial rasionallıq
- Substantiv rasionallıq

## Bəzi «xərc-fayda» göstəriciləri

- Net Fayda = Total Fayda – Total Xərc
- Fayda/Xərc Əmsalı = Total Fayda/Total Xərc
- RoR (Rate of Return) = 100% x (Total Fayda−Total Xərc)/ Total Xərc

**Çalışma 4.**

**Qruplara bölünərək verilən örnəkdəki (*«Magistral yollarda sürət limitinin müəyyən edilməsi»*) siyasət alternativlərini qiymətləndirin və tövsiyyələrinizi verin.**

# 5-ci Sessiya – Nəticə və tövsiyyələrin hazırlanması (müzakirə/qrup işi)

## Nəticə və tövsiyələr

- Əsas nəticələrin effektiv sintezi
- Siyasət tövsiyələrinin (*aydın, praktik, inandırıcı, məntiqi və əhatəli*) toplusu
- Siyasət həlləri üzrə yekun qeydlər

**Digər komponentlər**

- Siyasət sənədini dəstəkləyici əlavələr (cədvəllər, qrafiklər və s.)
- İstifadə olunan mənbələri göstərən biblioqrafiya
- Əlavə izahatların verildiyi «qeydlər» (endnotes/footnotes)

## Çalışma 5. Akademik yazının siyasət sənədinə çevrilməsi

- Akademik yazını siyasət sənədinə çevirmək üçün akademik blog postu oxuyun: https://www.oxcarre.ox.ac.uk/images/stories/papers/ResearchPapers/oxcarrerp2016171.pdf

- Siyasət sənədinin analiz hissəsini yazın (müəllifin fikirlərinin müzakirəsi)

  - *Siyasət nə üçün effekt vermir və ya işləmir?*
  - *Alternativ tapmaq nə üçün önəmlidir?*
  - *5-7 cümləlik qısa mətn formalaşdırın*

- Tərəf müqabiliniz ilə müzakirə edin.

**Diqqətinizə görə təşəkkür edirəm!**

kenan.aslanli@yahoo.com